*Qeyri-rəsmi tərcümə*

**Gürcüstanın Gəlirlər xidməti**

14.11.2024
N21-13/84474

Mövzu: Gürcüstanın CTG və SAD Konvensiyalarına qonulması və NCTS Faza 5-in yerləşdirilməsi

Hörmətli həmkarlar, hörmətli nəqliyyat sektorunun nümayəndələri.

Gürcüstanın Maliyyə Nazirliyinin (Gömrük, Vergi və SPS Sərhəd Nəzarəti Agentliyi) Gəlirlər Xidməti, Gürcüstanın "Malların Ticarətində Rəsmiliklərin Sadələşdirilməsi Konvensiyasına" və "Ümumi Tranzit Proseduru haqqında Konvensiyaya" yaxın vaxtlarda rəsmi qoşulmasını məmnuniyyətlə elan edir. Biz Yeni Kompüterləşdirilmiş Tranzit Sistemini (NCTS) Faza 5-i yerləşdirəcəyik.

Bu dəyişikliklər **1 Fevral 2025-ci** ildən qüvvəyə minəcək və Avropa İttifaqı, İslandiya, Şimali Makedoniya, Norveç, Serbiya, İsveçrə, Türkiyə, Ukrayna, Böyük Britaniya, eləcə də strateji beynəlxalq tərəfdaşlarımızla əməkdaşlıqda, tranzit əməliyyatlarının sadələşdirilməsində əhəmiyyətli irəliləyişdir.

Ba keçiddən əvvəl, yurisdiksiyanızdakı bütün maraqlı tərəflərə aşağıdakı tələbləri bildirməyi xahiş edirik:

1 .Zəmanət və Tranzit Bəyannaməsi Tələbləri: Konvensiyalara uyğun olaraq, Avropa İttifaqına və sadalanan digər ölkələrə gedən yolda Gürcüstana daxil olan və ya oradan keçən bütün mallar etibarlı zəmanət və tranzit bəyannaməsi ilə müşayiət olunmalıdır. Bu sənədlər Gürcüstan sərhədlərinə çatmazdan əvvəl təqdim edilməlidir. Bu tədbir Avropa İttifaqına və yuxarıda adı çəkilən ölkələrə Gürcüstan üzərindən təyinatlı, tranzit keçən, mənşəli və ya Gürcüstandan gələn mallara şamil edilir.

2. Yardım və Rəhbərlik: Zəmanətlə bağlı xidmətlər göstərən şirkətlər haqqında ətraflı prosedurlar və məlumatlar 15 dekabr 2024-cü i) tarixindən **www.rs.ge** vebsaytımızda mövcud olacaqdır.

Dəstək təmin etmək və keçidlə bağlı istənilən sualları cavablandırmaq üçün 1 yanvar 2025-ci il tarixindən xüsusi yardım xidməti fəaliyyət göstərəcək.

Əlaqə məlumatlar:

1-ci Səviyyə Dəstəyi:

- iş saatları: Bazarertəsi-cümə, 09:00 - 18:00
- Email: info@rs.ge
- Phone: +995 (32) 2 299 299
- RS Chat on website www.rs.ge
- RS çat işləyir: Bazarertəsi-cümə, 09:00 - 18:00
- RS Bot işləyir: 24/7

• 2-ci Səviyyə Dəstəyi:

- Working Hours: 24/7, Həftənin yeddi günü 14 noyabr 2024 N 21-13/84474
- Email: ncts.hd@rs.ge
- Phone: +995 (32) 2 299 299 (1-ci səviyyədən yönləndirilən zənglər)
- əlavə telefon nömrələri: +995 (32) 226 11 12, +995 (32) 226 14 46 (işci dillər: gürcü, ingilis)

Biz yeni sistemə rahat keçidi təmin etməyə çalışırıq və bu prosesdə əməkdaşlığınızı yüksək qiymətləndiririk. Hər kəsin məlumatlı və hazır olmasım təmin etmək üçün bu məlumatı bütün maraqlı tərəflər arasında yaymaq çox vacibdir.

Biz yüklərin sadələşdirilmiş və səmərəli tranzit sistemi istiqamətində birgə işləməyi səbirsizliklə gözləyirik. Əlavə sorğular üçün yardım xidməti vasitəsilə komandamızla əlaqə saxlayın və ya yuxarıda göstərilən əlaqə məlumatlarından istifadə edin. Ən yüksək hörmət və ehtiramla.

Hörmətlə,
Levan Kakava
Baş direktor